# Ermənilərin müsəlmanlara, xristianlara və yəhudilərə qarşı soyqırımı

## Erməni çətələri ilə rusların müsəlmanlara və musəvilərə yaptıqları soyqırım

Tanınmış araşdırmaçı yazar Xaqani İsmayılın "Ermənilərin müsəlmanlara, xristianlara və yəhudilərə qarşı soyqırımı" kitabı bədnam qonşumuzun bütün yalanlarını ifşa edən, onların xislətini ortaya çıxaran və bir çox tarixi faktlara işıq tutan ən mükəmməl vəsaitlərdən biridir. Müəllifin böyük zəhməti hesabına 3 dildə - Azərbaycan türkcəsi, rus və ingiliscə çap olunan kitabın, xüsusən də bütün dünyanın diqqətinin Qarabağa yönəldiyi indiki ərəfədə, geniş yayılmasına ciddi ehtiyac duyuruq. Odur ki, AMEA Tarix İnstitutunun və İnsan Hüquqları İnstitutunun rəyi və tövsiyəsi ilə nəşr olunan bu kitabın "Hürriyyət" qəzetində hissə-hissə dərcinə qərar verdik. Buyurun, oxuyun.

*(Əvvəli ötən saylarımızda)*

Ermənilərin yəhudilərə qarşı törətdiyi soyqırımı aktlarının növbəti səhifələri Türkiyə, İran, Orta Asiya və Doğu Avropa bölgələrinə aiddir:

Osmanlı arxiv materialları sırasında Baş Bakanlıq DİN Ümumi Təhlükəsizlik Müdürlüyünə göndərilmiş: Ərzurum Vilayətindən alınan (əski təqvimlə) 10 may [1]332 tarixli, Bitlis Vilayətindən alınan 11 may [1]332 tarixli, Mamurətüləziz Vilayətindən alınan 11 may [1]332 tarixli teleqrafnamələrdə Rusiya ordusunun Həsənqala mövqeyindən geri atıldığı zaman çəkilməli olan ordu sıralarındakı erməni çətələrinin (ruslarla birgə) yuxarıdakı teleqraflarda adları keçən yaşayış məntəqələrində ümumi sayı on minlərlə olan müsəlman və yəhudi əhalini soyqırıma uğratdığı bildirilir. 21 B. 1334 tarixli (24.V.1916) arxiv arayışında yuxarıda adı çəkilən 3 teleqrafdakı məruzələrə dayanaraq Ərzurumda, Həsənqalada; Perkeç nahiyesində, Vanda, Narman hüdudundakı Hot qəryəsində, Bitlisin Çukur nahiyesində, Ergani, Cinis, Pezentan və Semerşeyh qəryələrində, habelə Balekan qəryəsində sözün gerçək anlamında əsl soyqırımı törədilmişdi.

Tarix elmləri doktoru Moisey Bekker də yuxarıdakı olayları təsdiqləyən başqa fakt aşkar etmişdir:

"Bəllidir ki, 1916-cı ilin yazında və yayında, Rusiya tərəfindən Kiçik Asiyanın doğu qisminin işğalı vaxtı erməni millətçilərinin aşırı fəaliyyətləri müsəlmanlardan başqa, yerli yəhudi əhalisini də etkiləmişdi. Bu faktı qələmə alan İsrailin Vaşinqtondakı səfirliyinin keçmiş müşaviri Leni Ben Devid, I Dünya Savaşı dönəmində 10 min yəhudinin erməni başkəsənləri tərəfindən öldürüldüyünə diqqəti çəkərək bildirib ki, Osmanlı İmperiyası Daxili İşlər Nazirliyinin Xarici İşlər Nazirliyinə göndərdiyi hesabata görə, yalnız Kiçik Asiyanın doğusundakı yəhudilərin yaşadığı Seyl kəndində "300 nəfər sakin erməni başkəsənləri tərəfindən tikə-tikə doğranıb. Bu hadisələrin faciəsi onunla yekunlaşdı ki, erməni silahlılarının yəhudi əhalisinə qarşı vəhşilikləri sonucunda yə-



hudilər Doğu Anadoludan ayrılaraq İstanbula köçmək zorunda qaldı". Məqsəd Doğu Anadoluda etnik "təmizləmə" aparıb orada gələcəkdə monoetnik "Qərbi Ermənistan" yaratmaq idi.

İran qaynaqları isə təsdiq edir ki, ermənilər və onların müttəfiqləri assurilər İranın (Antanta və Rusiya tərəfindən) işğalından sui-istifadə edərək 1918-ci ilin martında Urmiyada Güney Azərbaycan türklərinə və müsəlmanlarına qarşı soyqırımı törədərkən Urmiya və Köhnəşəhər sakini olan yəhudiləri də soyqırıma məruz qoymuşlar. 1918-ci ilin fevralında Türküstan Muxtariyyətinin devrilməsində Sovet Rusiyası ordusu sıralarına yarımüstəqil qatılan erməni-daşnak birlikləri də Kokand bölgəsində (Fərqanə vadisi - Özbəkistan, Orta Asiya) türklərdən başqa, yəhudilərə qarşı da soyqırım həyata keçirmişdilər.

***

Etibarlı qaynaqlar təsdiq edir ki, ermənilərin yəhudilərə qarşı soyqırım fəaliyyətlərinin çox önəmli qismi isə nasist hərbi əməliyyatları kölgəsində həyata keçirilmişdir.

Mövzu ilə bağlı dəlilləri sunmazdan öncə erməni faşist legionunun (almanca: Armenische Legion) yaradılması ilə bağlı qısa bilgi ilə tanış olaq:

Erməni alimi Eduard A. Abramyanın araşdırmalarına görə, "böyükermənistançı" millətçilər öz daşnak liderlərinin başçılığı ilə Hitlerin xüsusi etimadını qazanmaq üçün böyük şövqlə faşistlərin qulluğuna girmişdilər. Və bəlkə də bu səbəbdən, yalnız erməni legionu bütün şərq legionları arasında yeganə homogen etnik tərkibə malik idi. Erməni Legionunun kod adı: "160 ID" idi. Erməni Legionu briqada (Brigade) statusu daşıyırdı, ancaq şəxsi heyətin sayına görə, o diviziya (Division) təşkil edirdi. Legionerlərin millətçi Daşnaksütyun Partiyasının liderləri ilə Almaniyanın paytaxtında yerləşən erməni həftəlik "Armenien" qəzeti redaksiyasında görüşü zamanı erməni legionunun yaradılmasının əsas ideoloqlarından olan general Dro onların "böyük iş gördüyünü - "Böyük Ermənistan"ı bolşevik zülmündən qurtaracaqlarını" və tezliklə Yerevanda görüşəcəklərinə ümidvar olduğunu bildirirdi...

"Almaniyadakı erməni legionerləri sırasında Vermaxtın zabitləri və SS zabitləri az deyildi, onlardan Vaffen-Ştandartenfürer Vartan Sarkisyanı nümunə göstərmək olar, hansı ki, sonucda 12 dekabr 1944-cü il tarixindən başlayaraq erməni grenader rotasına və SS-in Qafqaz süvari birləşməsinin nəzdində olan SS süvari qrupuna komandanıq edirdi. Həmçinin geniş tanınanlar sırasında abverqruppen (Abverə bağlı qrup -X.İ.) erməni bölüklərinin diversion (dağıdıcı, təxribatçı) fəaliyyətlərinə cavabdeh olan kapitan Misak Torlakyan, 1944-cü ilin oktyabrından SS-in xüsusi erməni partsergrenader bölüklərinə komandanlıq edən qruppenfürer Razmik Nazaryan və çoxsayda başqaları vardı (hansılarının ki ailələri 1915-ci il hadisələrinin başlanğıcından etibarən Almaniyaya və Avropanın başqa ölkələrinə mühacirət etmişdilər)."

Drastamat Kanayanla birgə, 1918-1920 -ci illər erməni ulusal hərəkatının başqa əfsanəvi ismi Qaregin Njde (Ter-Arutyunyan) də faşist Almaniyasında xüsusi məşhurluqla təmsil olunurdu. Njde də öz növbəsində ermənilərin nasizm qulluğuna səfərbər olunması məqsədi güdən "Tsegakron" hərəkatı yaratmışdı.

Təbliğat sahəsində nüfuzlu şəxslərdən biri də Alfred Muradyan adlı bir Almaniya ermənisi idi. Ermənistan Respublikasının keçmiş Baş naziri Aleksandr Xatisyan da Almaniyaya gəlmişdi. Almaniyanın SSRİ-dəki (Sovetlər Birliyi) keçmiş səfiri Şulenberqlə görüşlərində o, bir neçə dəfə reyxin planlarında gələcək Ermənistanın statusu məsələsini qadırmışdı və bu dövlət xadimindən fürerlə rəsmi qəbulu razılaşdırmağa söz almışdı.

Ancaq komandanlıq başqa tələb irəli sürürdü, özəlliklə də Abver, hansı ki, kəşfiyyat və əks-kəşfiyyat agentləri sırasında erməni millətinin nümayəndələrinin daha çox cəlb edilməsini ən çox istəyənlərdən idi. Sonra erməni-agentlərdən ibarət abverqruplar yaradıldı. Onlardan 114-cü Dromedar, 201-ci Qars və çox sayda başqaları fərqlənirdi.

***

ABŞ professoru, hüquqşünas Səmyuel A.Uimzin tarixi araşdırmalarına görə, hələ 1935-ci ildən etibarən ermənilərdə yəhudilərə qarşı təcavüzü əsaslandırmağa yönələn təbliğat vasitələri işə düşmüşdü:

1935-ci ilin avqustundan erməni qəzetləri almanmeylli məqalələr çap edirdi. 10 may 1935-ci il tarixli Həftəlik Hairenik erməni qəzeti Rumıniyanın başkəndi Buxarestdə vitse-merin bəyanatını çap etmişdi: "Ermənilər yəhudilərin quluna çevrilməmək üçün Rumıniyaya kömək etmişdir." (Yenə orada, s.348). Tarixin yaddaşına görə, faşist işğalına məruz qalan ərazilərdə Rumıniya anti-yəhudi cəbhəsinin ön sıralarında yer almışdı.

9 avqust 1935-ci ilin Həftəlik Hairenik qəzeti ermənilərin və yunanların Saloniki şəhərində çoxsaylı yəhudiləri qətlə yetirməsinin yəhudilərin sərvət toplamağa olan məhəbbəti qarşılığında baş verdiyini yazırdı.

Həftəlik Hairenik qəzetindən geri qalmayan Gündəlik Hairenik erməni qəzeti alman faşizminin müdafiəsinə girişərək 19 avqust 1936-cı ildə yazırdı: "Xronik xəstəlik kimi dərin köklər salmış bu zəhərli elementləri (yəhudiləri) bəzən anlamaq çətin olur, bu adamlar (faşistlər) onları anlamaq üçün tanış olmayan üsullara əl atanda isə həmin cəhdlərə inqilabçılıq donu geyindirilir. Cərrahiəməliyyat vaxtı qanın axması təbii haldır. Bu vəziyyətdə diktatorluq xilaskar rolunda görünməlidir...".

17 sentyabr 1936-cı il tarixli Hairenik Hitleri və almanları belə tərif edirdi: "Və sanki herkules döyüşlərindən sonra Adolf Hitler gəldi (hakimiyyətə). O, almanların irqi ürək telləri haqqında danışaraq öz milli dühasının fəvvarəsini püskürtdü".

25 sentyabr 1936-cı il nömrəsinin redaksiya məqaləsində isə deyilirdi: "...Fələstinə idxal edilmiş yəhudilərin növü haqqında iftixar hissi keçirməyə dəyməz. Onlar pis əxlaqı olan şər qüvvələrdir... Və hər şeydən əvvəl ərəb böhranının ən başlıca səbəbi yəhudilərin kommunist fəaliyyətinin sonucudur".

Hairenik qəzetinin bu yazısı Massaçusetts ştatının Boston şəhərində yaşayan ermənilər tərəfindən ingilis dilində çap olundu. (Yenə orada, s.348-349). Erməni İnqilabi Federasiyası arxivlərinin elmi araşdırmalar üçün ictimaiyyətin üçünə açıq olmamasının bəlkə də səbəbi budur (Yenə orada, s. 349). [Ancaq bizcə, yetərincə başqa səbəblər də var: daşnak öndərlərindən H.Kaçaznuninin daşnakların 1923-cü il qurultayındakı məruzəsi və s. kimi -X.İ.]. S.Uimz bu qənaətə gəlir ki: bəlkə də ermənilər ağıllı və əsl tarixçilərin onların arxivlərində iş aparmasından qorxurlar. Qorxurlar ki, onların II Dünya Savaşı ərzində faşist Almaniyasına fəal köməyinin üstü açılar.




S.Uimzin araşdırmalarına görə, 1942-ci ildə çoxsaylı erməni gənci səfərbər edilərək faşistlərin müharibə cəhdlərinin fəal müdafiəçilərinə çevrilmişdi. Suren Bezzadyan Avropada və Türkiyədə yaşayan gənc ermənilər arasında ünlü olmuş Paykar Hoassank ("işıqlı" mənasını verir -S.U.) adlanan Erməni Milli Sosialist Hərəkatını yaradaraq ona başçılıq edir... (Yenə orada, s. 349).

"1942-ci ilin sonlarında bu təşkilat Erməni Milli Şurası ilə birləşdi. Yeni təşkilatı Erməni İnqilabi Federasiyasının bir neçə öncülü yaratdı.

Erməni generalı Qaregin Njde erməni Tseğaqron təşkilatını yaratdı. Məhz bu təşkilat vasitəsilə gənc ermənilər bədnam faşist SS-inə və digər elit alman hərbi qüvvələrinə axışdılar. Faşist Almaniyasını erməni müdafiəsi çox geniş yayılmışdı. Almaniyada və Fransada yaşayan çoxsaylı ermənilər 58-ci Panzer korpusuna və Vermaxtın Ostlegion 10-cu ordusuna daxil oldu.

S.Uimzin yazdığı kimi, vaxtilə silahsız müsəlman kəndlərinə çoxsaylı hücumları ilə ünlü olan erməni generalı Dro Kanayan Alman faşizminin müharibə səylərinə qoşuldu; 812-ci erməni legionu və erməni batalyonu yaradıldı.

Fevral 1945-ci il. -Erməni könüllülərinin "Hayastan" qəzeti hər zaman son qələbəni elan edir (soldan yuxarıda: onların svastikaya bənzəyən simvolla nişanı). Bu erməni nasist qəzetindən olduqca az nüsxə saxlanmışdır, çoxu isə, təbii, ermənilər tərəfindən məhv edilmişdir. 1-ci səhifəsində Erməni könüllü hərbi hissələrinin zabit və əsgərlərinə müraciət yayınlanmışdır:

"Yeni ildə qələbəyə və ölkənin azad olunmasına inam ilə müşayiət olunacaq ən xoş arzular".

Erməni İnqilabi Federasiyasının öndərləri Almaniya hərbi kəşfiyyatı ilə sıx əlaqədə işləyirdilər. Ermənilər I Dünya Savaşında ruslar üçün əllərindən gələni etdiyi kimi, indi də Almaniya üçün edirdilər - casusluq! 1941-ci ilin ortalarından 1944-cü ilin sentyabrına kimi ermənilər Türkiyədə və bütün Yaxın Şərqdə faşist kəşfiyyat idarələri ilə yaxından əməkdaşlıq edirdilər. Erməni "gizli" agentləri alman təbliğatını yayır və yəhudiləri qovub-tutmaqda faşistlərə kömək edirdilər...".

*(Ardı var)*